# Bakı Dövlət Universitetinin tərəqqi və inkişafında yeni mərhələ: Heydər Əliyev mərhələsi (1969-2003)

**XƏLƏFOV A. A.**
***Azərbaycan Respublikasının Əməkdar elm xadimi, Əməkdar mədəniyyət işçisi, Bakı Dövlət Universitetinin Fəxri professoru, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki, Respublika Prezidentinin fərdi təqaüdçüsü, tarix elmləri doktoru, professor***

*Məqalədə Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu Ulu Öndər Heydər Əliyevin böyük bir zaman kəsiyində - 34 il müddətində Bakı Dövlət Universitetinə qayğısı, təəssübkeşi və hamisi kimi fəaliyyəti işıqlandırılmışdır.*

***Açar sözlər:*** *Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu, Universitetin Heydər Əliyev mərhələsində inkişaf istiqamətləri, əldə etmiş olduğu nailiyyətlər və uğurlar.*

*Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan Respublikasının milli sərvətidir, milli iftixarıdır.*

***

*Mən çox xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin məzunuyam.*

***Heydər Əliyev***

Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı, Azərbaycanın ilk elm və təhsil məbədgahı, Şərqdə ilk parlayan ulduz Bakı Dövlət Universiteti xalqımızın istiqlal mübarizəsi tarixində, siyasi, iqtisadi, elm, təhsil və mədəniyyətinin inkişafı sahəsində respublikamızın müstəqilliyə, inkişaf və tərəqqiyə gedən yolunu işıqlandırılmış, universitetin beynəlxalq imicini yüksəltmiş, əvəzsiz xidmətləri ilə şöhrət tapmışdır. Bakı Dövlət Universitetinin fəaliyyətinin 70 ili Sovet dövrünə təsadüf edir.

Universitetin Sovet dövrü tarixini qiymətləndirərkən Ulu Öndər Heydər Əliyev BDU-nun 80 illik yubileyində etdiyi parlaq çıxışında demişdir: "Mənim də mövqeyim ondan ibarətdir ki, Azərbaycan xalqı, təhsili 70 illik Sovet hakimiyyəti dövründə böyük inkişaf yolu keçibdir. Xalqımız təhsillənib, yüksək təhsilə malik olubdur. Tarixi təhrif etmək olmaz, tarixdə hər şeyin öz yeri vardır. O, nə səndən, nə də heç kəsdən asılı deyildir."

Ulu Öndərin keçmiş dövrün öyrənilməsi, tarixi proseslərə obyektiv qiymət verilməsi haqqında bu kəlamı öz tarixi inkişafının 70 ilini Sovet dövründə

keçirən, çox mühüm nailiyyətlər əldə edən Bakı Dövlət Universitetinin tarixinin öyrənilməsinə və qiymətləndirilməsinə də şamil edilmişdir.

Bakı Dövlət Universitetinin Sovet dövrü fəaliyyəti olduqca mühüm hadisələrlə-ali məktəb təhsilinin, elminin yeni forma və metodlarının yaradılması, inkişafı, dövrün tələblərinə müvafiq yeni islahatların keçirilməsi, ali məktəbin maddi-texniki bazasının möhkəmləndirilməsi, yeni tədris korpuslarının yaradılması, tədrisin texniki vasitələrinin əldə edilməsi, universitetin maliyyələşdirilməsinin ön plana çəkilməsi, tələbə qəbulunun davamlı olaraq ilbəil artırılması, yüksək ixtisaslı professor-müəllim heyətinin, alim kadrların hazırlanması ilə zəngin olmuşdur.

Bakı Dövlət Universiteti çətinliklə də olsa, Azərbaycan milli ideologiyasının yaranmasında, formalaşmasında böyük və uğurlu fəaliyyət göstərmiş, onun auditoriyalarında, dərs otaqlarında, mühazirə zallarında, kafedralarında və laboratoriyalarında xalqımızın milli mənliyinin, milli şüurunun, vətənpərvərlik və milli dirçəliş ruhunun aşılanması və inkişaf etdirilməsi üçün olduqca böyük işlər görməyə müvəffəq olmuşdur.

Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin inkişafında böyük xidmətləri olan Bakı Dövlət Universiteti Azərbaycan xalqının, Azərbaycan dövlətinin diqqət mərkəzində olmuş, yüksək qayğı ilə əhatə edilmişdir. Vaxtaşırı olaraq bu böyük elm və təhsil məbədgahının yubileylərinin dövlət səviyyəsində keçirilməsi bu qayğının təzahürüdür.

1929-cu ildə Bakı Dövlət Universitetinin 10 illiyi, 1969-cu ildə 50 illiyi, 1979-cu ildə 60 illiyi, 1994-cü ildə 75 illiyi, 1999-cu ildə 80 illiyi, 2009-cu ildə 90 illiyi keçirilmişdir. Universitetin inkişaf və tərəqqisinə, universitet təhsilinin və universitet elminin inkişafına qayğı ilə yanaşan möhtərəm Prezidentimiz İlham Əliyevin Bakı Dövlət Universitetinin 100 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncam bu qayğının yeni təzahürüdür.

Sərəncama müvafiq olaraq Bakı Dövlət Universitetinin 100 illik yubileyinin xalqımızın, dövlətimizin, elmimizin, təhsilimizin, mədəniyyətimizin bayramı kimi 2019-cu ilin noyabr ayında dövlət səviyyəsində qeyd edilməsi nəzərdə tutulmuşdur.

1919-cu ilin sentyabrında fəaliyyətə başlayan Bakı Dövlət Universitetinin 1969-cu ildə 50 illiyi tamam oldu. Bakı Dövlət Universiteti yarım əsr müddətində olduqca şərəfli, böyük uğurlarla dolu tarixi bir yol keçmiş, Azərbaycanın ilk elm, təhsil məbədgahı kimi şöhrətə nail ola bilmişdi.

Universitetin fəaliyyətinə yüksək qiymət verən Azərbaycan hökuməti 1969-cu ilin sentyabrında 50 illik yubileyin yüksək dövlət səviyyəsində keçirilməsi haqqında qərar qəbul etmiş, yubiley komissiyası yaradılmış yubileyə hazırlıq işlərinə başlamışdır. Yubileyə hazırlıq ərəfəsində respublikanın siyasi həyatında kadr dəyişikliyi baş verdi.





1969-cu il iyul ayının 14-də Azərbaycan KP MK-nın plenumu keçirildi. Plenum Azərbaycan xalqının böyük oğlu, görkəmli dövlət xadimi Heydər Əlirza oğlu Əliyevi Azərbaycan KP MK-nın birinci katibi seçdi. Bununla da Azərbaycanın müasir tarixində dönüş mərhələsi kimi xarakterizə olunan yeni dönüş mərhələsinin təməli qoyuldu.

Uzun bir dövrü əhatə edən bu tarixi mərhələ Azərbaycan xalqının, Azərbaycan dövlətinin iqtisadi, ictimai-siyasi, elm, təhsil, mədəniyyət, ədəbiyyat və incəsənətin inkişafı, xalqın mənəvi-siyasi şüurunun formalaşması, dövlət quruculuğunun daha da təkmilləşməsi sahəsində mühüm tarixi inkişaf yolunun böyük inkişaf və tərəqqi mərhələsi oldu.

Məhz bu mərhələdə respublikada ictimai-siyasi ab-hava yaxşılaşdı, insanlarda gələcəyə inam artdı. Azərbaycan alimləri, yaradıcı ziyalıları üçün sərbəst düşüncə şəraiti yarandı. Ölkədə milli özünüdərk prosesinin genişlənməsinə, milli şüurun, milli ideologiyanın və milli-mənəvi dəyərlərin formalaşmasına ciddi təkan verdi, milli kadrların hazırlanması, Azərbaycan tarixinin, Azərbaycan dilinin, Azərbaycan mədəniyyətinin öyrənilməsi üçün böyük tədbirlər həyata keçirilməyə başlandı.

Bakı Dövlət Universitetinin çoxminli kollektivi 1969-cu ilin iyul ayında Universitetin dünya şöhrətli məzunu, xalqımızın böyük oğlu, XX əsr türk dünyasının ulduzu Heydər Əlirza oğlu Əliyevin Azərbaycan KP MK-nın birinci katibi seçilməsini böyük qürur və iftixar hissi ilə qarşıladı.

Ulu Öndərin hakimiyyətə gəlməsi universitetin tarixinə Heydər Əliyev mərhələsi kimi daxil oldu. Məhz 1969-cu ildən başlayaraq ömrünün axırına qədər o, universitetin hamisi, böyük təəssübkeşi olmuşdur. Heydər Əliyev universitetin inkişafını daim diqqət mərkəzində saxlamış, onun tərəqqi və inkişafına nəzarət və rəhbərik etmişdir.

1919-cu ildə fəaliyyətə başlayan və 1969-cu ilə qədər fəaliyyət göstərən Bakı Dövlət Universiteti 50 illik inkişaf yolu keçmişdir. Bu yol böyük çətinliklər, ideoloji-siyasi mübarizələr yolu, daşlı-kəsəkli, enişli-yoxuşlu bir yol olsa da, Bakı Dövlət Universiteti bu yolu ləyaqətlə irəliləmiş, 50 illik şərəfli yubileyinə böyük nailiyyətlərlə, qazandığı böyük uğurlarla qəlib çıxmışdır. Universitetin əldə etdiyi 50 illik nailiyyətləri xalqımızın, dövlətimizin iqtisadi, siyasi, elm, təhsil, mədəniyyət, ədəbiyyat və incəsənət sahəsində, həmçinin milli şüurun, milli ideologiyanın formalaşmasında böyük qələbəsi idi.

Bakı Dövlət Universitetinin 50 illik fəaliyyəti ilə bağlı statistik rəqəmlərə diqqət yetirək.

1919-cu ilin oktyabrında fəaliyyətə başlayan universitetin 4 fakültəsi, 40 nəfər professor-müəllimi var idisə, 1969-cu ildə universitetdə təbiət və humanitar elmlərin mühüm sahələrini əhatə edən 14 fakültə: Mexanika- Riyaziyyat, Fizika, Kimya, Biologiya, Geoloji-Coğrafiya, Tarix, Filologiya, Şərqşünaslıq, Hüquq, Kitabxanaçılıq, Jurnalistika, İxtisasartırma və xarici tələbələr fakültə-

ləri fəaliyyət göstərirdi. Bu fakültələrdə 64 kafedra, 86 laboratoriya, o cümlədən 4 problem laboratoriyası 42 kabinet, 2 muzey vardı. İlbəil artan tələbələrin sayı 1969-cu ildə 12 mindən artıq idi. Universitetdə çalışan 710 nəfər professor-müəllimlərin böyük əksəriyyəti elmi dərəcəyə və elmi ada malik müəllimlər idi. Universitet 50 il müddətində artıq xalq təsərrüfatının, elm və mədəniyyətin müxtəlif sahələri üçün 25 mindən yüksək ixtisaslı kadr hazırlamağa müvəffəq olmuşdur.

1946-1969-cu illərdə universitet elmi şuralarında 105 doktorluq, 1253 namizədlik dissertasiyası müdafiə edilmiş, onun yetirmələrindən 30 nəfərdən çoxu Azərbaycan Elmlər Akademiyasının müxbir və həqiqi üzvü seçilmişdi.

Bakı Dövlət Universitetinin 1950-1960-cı illərdə böyük uğurlar əldə etməsində müharibədən sonrakı illərdə universitetə rəhbərlik etmiş xalqımızın görkəmli alimləri-akademik A.İ.Qarayevin, professor C.Z.Hacıyevin, akademik Y.H.Məmmədəliyevin, akademik Ş.F.Mehdiyevin və dosent M.S.Əliyevin böyük rolu olmuşdur.

Bakı Dövlət Universitetinin 50 il müddətində hazırladığı kadrlar xalq təsərüffatının, elm, təhsil və mədəniyyətin sahələrində böyük uğurlar qazanmışdır. Universitet məzunlarının həm respublikamızda, həm də keçmiş SSRİ məkanında yüksək imic qazanması onun böyük uğurlarından xəbər verirdi. Məlum olduğu kimi, Ulu Öndər hakimiyyətə gələnə qədər respublika hakimiyyəti Bakı Dövlət Universitetinin xalqımız, dövlətimiz, iqtisadiyyatımız, elmimiz, təhsilimiz, mədəniyyətimiz qarşısında böyük xidmətlərini nəzərə alaraq onun 50 illik yubileyinin dövlət səviyyəsində 1969-cu ilin sentyabr ayında keçirilməsi haqqında qərar qəbul etmişdi. Azərbaycan KP MK-nın birinci katibi yubiley komissiyasının sədri təyin edilmişdi.

1969-cu ilin iyul ayında Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçiləndən sonra yubiley komissiyasının sədri vəzifəsini öz üzərinə götürdü. Heydər Əliyev Universitetdə yubileyə hazırlıq işləri ilə tanış olduqdan sonra yubileyin keçirilməsi üçün görüləcək işlərə dair ayrı-ayrı dövlət orqanlarına göstəriş verildi.

Yubileyin keçirilməsi üçün görüləcək tədbirlər, həyata keçiriləcək işlər Universitetin gələcək inkişafına istiqamətlənmişdi. Heydər Əliyevin yubiley komissiyasına rəhbərlik etməsi onun məzunu olduğu Universitetə böyük qayğısının və qiymətinin nəticəsi idi. Universitetin tarixi inkişaf yoluna nəzər saldıqda, bir daha məlum olur ki, bu qayğı daimi xarakter daşımış, Ulu Öndərin həyatının sonuna qədər davam etmişdir.

Bakı Dövlət Universitetinin yubileyləri içərisində onun ilk 50 illik yubileyinin hazırlanması və keçirilməsinin universitetin gələcək inkişafında yeni istiqamətlərinin müəyyənləşdirilməsində mühüm rolu olan yeni dönüş mərhələsi oldu. Bu mərhələ Bakı Dövlət Universitetinin tarixində çox dəyərli, daim milli dirçəlişə, təhsil prosesinin keyfiyyətinin yüksəlməsinə, Universitet elmi-





nin elmi-tədqiqat sahəsinin genişlənməsinə və universitetin kadr korpusunun daha da təkmilləşməsinə xidmət edən mərhələ kimi yadda qalmışdır.

Bakı Dövlət Universitetinin 50 illik yubileyi xalqımızın, elmimizin, təhsilimizin, maarif və mədəniyyətimizin, ədəbiyyat və incəsənətimizin bayramı idi. Universitetin çoxminli kollektivi bu bayramı böyük ruh yüksəkliyi, iftixar hissi ilə qarşıladı. Bu bayram Universitet kollektivi üçün bir də ona görə əziz və şərəfli, qürur mənbəyi idi ki, yubiley komissiyasının sədri Universitetin dünya şöhrətli məzunu, Universitetin böyük təəssübkeşi, Azərbaycan KP MK-nın birinci katibi Heydər Əlirza oğlu Əliyev idi. Obrazlı şəkildə desək, Heydər Əliyev Universitetin şah əsəri idi. Heydər Əliyev qədər həm Bakı Dövlət Universitetini, həm də bütövlükdə Azərbaycan xalqını, Azərbaycan dövlətini beynəlxalq aləmdə şöhrətləndirən ikinci məzun yoxdur. Bakı Dövlət Universitetinin tarixində Allah vergisi olan bu böyük insan olduqca təvazökar, sadə, insan ləyaqətinə hörmət edən, özünü insanlardan ayırmayan, böyük fitri istedada, liderlik qabiliyyətinə malik dünya şöhrətli dövlət xadimi idi.

Ulu Öndərin Bakı Dövlət Universitetinin məzunu olması ilə fəxr etməsini dəfələrlə vurğulaması, universiteti "Azərbaycan xalqının milli sərvəti, qürur mənbəyi" kimi qiymətləndirməsi xalqımızın ilk elm və təhsil məbədgahı olan Bakı Dövlət Universitetinə verilən ən böyük qiymətdir.

2019-cu ilin oktyabr ayında özünün 100 illik yubileyini qeyd etməyə hazırlaşan Bakı Dövlət Universitetinin çoxminli kollektivi özünün dünya şöhrətli məzunu Heydər Əliyevin yüksək tarixçi, mütəxəssis kimi yetişdirilməsində xidməti ilə qürur hissi keçirir, öz məzunu ilə fəxr edir.

1969-cu ilin oktyabr ayında Universitetin 50 illiyi tamam oldu. Azərbaycan hökumətinin qərarına müvafiq olaraq 1969-cu ilin noyabr ayının 1-də təntənəli yubiley iclası keçirildi. Yubiley təntənələrində Bakı Dövlət Universitetinin professor-müəllim heyəti, respublikamızın görkəmli ziyalıları ilə yanaşı, SSRİ-nin müttəfiq respublikalarından və bir çox xarici ölkələrdən nümayəndələr iştirak edirdilər.

Heydər Əliyev öz əsərlərində çıxışlarında dəfələrlə Bakı Dövlət Universitetinin məzunu olmağı ilə fəxr etdiyini vurğulayıb. Onun yüksək şəxsiyyət, görkəmli dövlət xadimi, böyük ziyalı kimi formalaşmasında, milli-mənəvi dəyərlərə yiyələnməsində universitet mühitinin, ab-havasının böyük rolunu yüksək qiymətləndirib.

Ulu Öndərin Bakı Dövlət Universitetinin məzunu olması ilə fəxr etməsi Bakı Dövlət Universitetinin çoxminli kollektivinin qürur mənbəyidir. Öz dünya şöhrətli məzunu ilə fəxr edən kollektiv onun əziz xatirəsini daima uca tutur, onun ideya və baxışlarına daim sədaqətli olması ilə şərəf duyur.

Heydər Əliyevin yubiley komissiyasının sədri kimi tədbirlərin hazırlanmasına bilavasitə rəhbərlik etməsi, yubileydə iştirak üçün gələn qonaqları qəbul etməsi, universitetin Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin inki-

şafındakı xidmətləri haqqında geniş məlumat verməsi yubiley tədbirlərinin daha yüksək səviyyədə keçirilməsinə şərait yaratmışdı.

Heydər Əliyev təntənəli yubiley iclasını açarkən öz parlaq nitqində universitetin keçdiyi böyük və çətin, keşməkeşli inkişaf və tərəqqi yolunu, universitetin Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin inkişafındakı böyük xidmətlərini yüksək qiymətləndirərək demişdir: "Bakıda universitet Azərbaycan xalqının həyatının ağır günlərində yaradılmışdır. Lakin bu vəziyyət universitet yaradılması uğrunda hərəkatın qarşısını ala bilmədi. Azərbaycan universitetinin yaranması qabaqcıl qüvvələrin qələbəsi idi, doğma xalqı maarifləndirmək uğrunda, dünya mədəniyyəti və elm xəzinəsinin qapılarını onun üzünə açmaq uğrunda Azərbaycanın ən yaxşı oğullarının bir çox illər ərzində apardıqları mübarizənin yekunları idi... Biz Azərbaycan xalqının bu və ya digər görkəmli oğullarına ona görə minnətdarıq ki, onlar zülmətli, irtica və özbaşınalıq şəraitində Azərbaycan xalqının ictimai fikrini, elm və mədəniyyətinin məşəlini göz bəbəyi kimi qorumuşlar."

Bu fikirlər Heydər Əliyevin Azərbaycan maarifçilərinə, ziyalılarına, Bakı Dövlət Universitetinin yaradılmasında böyük fədakarlıq göstərən Azərbaycan Xalq Cümhuriyyəti xadimlərinə verdiyi böyük qiymət idi...

Bu gün Bakı Dövlət Universitetinin keçdiyi bir əsrlik yola yekun vurarkən tam əsasla deyə bilərik ki, yubilyar bu yüksək ada layiq olduğunu özünün bütün fəaliyyəti ilə sübut etmişdir.

Ulu Öndər universitetin Azərbaycan elminin, ali təhsil sisteminin, Azərbaycan Elmlər Akademiyasının yaranmasında, aparıcı ali məktəblərin yaranıb formalaşmasındakı fəaliyyətini yüksək qiymətləndirərək obrazlı şəkildə deyirdi: əgər universiteti qüdrətli bir ağaca bənzətmiş olsaq, deyə bilərik ki, bunlar onun öz qol-budaqlarıdır.

Bakı Dövlət Universitetinin 50 illik yubileyində mühüm siyasi və milli əhəmiyyət kəsb edən mühüm, diqqətəlayiq bir hadisə baş verdi. Ulu Öndər çıxışını doğma Azərbaycan dilində etdi. Heydər Əliyev o dövrdə bütün SSRİ miqyasında, bütün rəsmi yığıncaqlarda dövlət və partiya rəhbərlərinin ancaq rus dilində çıxış etməsi ənənəsini pozaraq öz ana dilində danışdı. Heydər Əliyevin bu çıxışı Azərbaycanın milli-mənəvi sərvətlərinin qorunması, Azərbaycan dilinin, Azərbaycan tarixinin, Azərbaycan ədəbiyyat və incəsənətinin, bütövlükdə Azərbaycan milli mədəniyyətinin inkişafının yeni bir mərhələsinin başlanğıcı oldu. Məhz bu mərhələ Azərbaycan tarixinə dönüş mərhələsi, milli dirçəliş mərhələsi kimi daxil oldu. Azərbaycan dilinin dövlət dili kimi formalaşması dövlət dili statusu alması üçün zəmin yaratdı. Obrazlı şəkildə desək, Heydər Əliyevin bu çıxışı Azərbaycan dilinin rəsmi dövlət tədbirləri keçirilən akt zallarına, saraylarına daxil olmaq üçün şərait yaratdı.

Beləliklə, burada göstərdiklərimizdən məlum olur ki, Heydər Əliyev dühası 1960-cı illərdən başlayaraq XXI əsrin əvvələrinə qədər "Azərbaycan xalqının milli sərvəti" kimi qiymətləndirdiyi, "məzunu olmağı ilə fəxr etdiyi" Bakı Dövlət Universitetinin inkişaf və tərəqqi yolunu işıqlandırmış, ölkəmizin ilk elm və təhsil məbədgahını dünyanın qabaqcıl universitetləri sırasına çıxması, davamlı olaraq universitetin inkişafı, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, kadr potensialının gücləndirilməsi, tədris prosesinin keyfiyyətinin daha da yüksəldilməsi, ali məktəb elminin daha da şaxələnməsi, yeni elmi məktəblərin yaranması üçün mühüm dövlət tədbirlərinin həyata keçirilməsinin təşəbbüskarı olmuş, unuversitetin Azərbaycan ali məktəblərinin flaqmanı imicini qazanmasına şərait yaratmışdır.





Universitetin xidmətlərini yüksək qiymətləndirən Heydər Əliyev 1969-cu ildə 50, 1979-cu ildə 60, 1994-cü ildə 75, 1999-cu ildə 80 illik yubiley şənliklərinin təşkilinə və keçirilməsinə rəhbərlik etmiş, yubiley şənliklərində universitetin elm, təhsil, mədəni inkişaf sahəsində gördüyü işlər haqqında dərin məzmunlu çıxışlar etmişdir.

Ənənəyə görə, 1989-cu ildə universitetin 70 illik yubileyi keçirilməli idi. Ancaq Heydər Əliyev Moskvada olduğundan Azərbaycanın o dövrkü rəhbərliyi bu yubileyi keçirməyi lazım bilmədi. Təkcə bu fakt göstərir ki, Ulu Öndər universitetin inkişafı üçün çox böyük işlər görmüşdür.

Ulu Öndərin proqram xarakterli çıxışlarında unuversitetin fəaliyyəti, əldə etdiyi uğurlar dərindən təhlil edilmiş, onun gələcək inkişafının əsas istiqamətləri və qarşıda duran vəzifələri şərh edilmişdir.

Universitetin yubiley şənliklərinin keçirilməsini böyük elm, təhsil və mədəniyyət bayramı kimi qiymətləndirən Heydər Əliyev 1994-cü ildə universitetin 75 illik yubiley təntənəsi keçirilərkən demişdir: "Xoşbəxtəm ki, Bakı Dövlət Universitetinin 50 illik yubileyinin də, 60 illik yubileyinin də iştirakçısı olmuşam. İndi universitetin 75 illik yubileyinin iştirakçısıyam. Universitetin 50 illiyi, 60 illiyi qeyd olunmuşdur. Amma təəssüf ki, 70 illiyi nədənsə qeyd edilməmişdir. Bunu yaddan çıxarmışlar.

1969-1980-ci illər Bakı Dövlət Universitetinin tarixinə yeni inkişaf istiqamətləri ilə zəngin olan yeni dönüş mərhələsi kimi daxil olmuşdur. Bu mərhələ 1969-cu ilin iyul ayında Azərbaycan Kommunist Partiyasının birinci katibi seçilən Heydər Əlirza oğlu Əliyevin adı və fəaliyyəti ilə bağlıdır. Böyük dövlətçilik qabiliyyətinə, siyasi iradəyə malik olan Ulu Öndər qısa müddətdə dövlət orqanlarının işində dönüş yaratdı. Respublikanın ictimai-siyasi həyatında sağlam ab-hava yaratmaqla bütün dövlət orqanlarının işini xalqın iqtisadi, sosial-mədəni tərəqqisi sahəsinə yönəltdi. Dönüş mərhələsinin ən zəruri amillərindən biri milli oyanış, dirçəliş siyasətinin böyük məharətlə aparılması, Azərbaycan xalqının milli adət və ənənələrinin bərpa edilməsi, milli şüurun yüksəlməsinə yönəldilməsi olmuşdur.

XX əsrin 60-cı illəri keçmiş SSRİ-də inkişaf etmiş sosializm cəmiyyəti illəri adlanmasına baxmayaraq, Azərbaycanda bu inkişafdan danışmaq olduq-

ca çətin idi. Azərbaycan iqtisadiyyatı bütövlükdə böhran mərhələsini yaşayırdı. Respublika ardı-arası kəsilməyən dedi-qodu meydanına çevrilmişdi.

Belə bir çətin siyasi, iqtisadi böhran şəraitində Heydər Əlirza oğlu Əliyev 1969-cu ilin 14 iyulunda Azərbaycan Kommunist Partiyasının birinci katibi vəzifəsinə seçildi. Böyük təşkilatçılıq qabiliyyətinə, möhkəm dəmir iradəyə malik olan Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə Azərbaycanda anarxiyaya, hərc-mərcliyə son qoyuldu. Ölkə özünün inkişaf yolunu tapdı. SSRİ-nin müttəfiq respublikaları içərinsində Azərbaycan iqtisadiyyat, siyasət, elm, təhsil, mədəniyyət sahəsində öncül mövqeyini bərpa etməyə müvəffəq oldu. İqtisadiyyatda, siyasətdə, elm, təhsil və mədəni quruculuğun bütün sahələrində əldə edilən böyük inkişaf və tərəqqi ölkənin mədəni və mənəvi həyatında mühüm irəliləyişlərə səbəb oldu.

1970-1980-cı illər Azərbaycan ali məktəblərinin flaqmanı olan Bakı Dövlət Universitetinin həyatında da böyük inkişaf və dönüş mərhələsi olmuşdur. Bu mərhələ bilavasitə Universitetin dünya şöhrətli məzunu, Universitetin böyük təəssüfkeşi və hamisi Heydər Əliyevin adı ilə bağlıdır. Ona görə də Bakı Dövlət Unversitetinin 1969-1980-ci illər tarixi Heydər Əliyev mərhələsi kimi xarakterizə olunur.

Bakı Dövlət Universitetinin tarixinə nəzər salarkən məlum olur ki, Ulu Öndərin respublikaya rəhbərlik etdiyi 34 ildə həmişə universitetin fəaliyyəti ilə maraqlanmış, onu diqqətdə saxlamış, onun inkişaf istiqamətini müəyyənləşdirmişdi. Ulu Öndərin universitetə diqqət və qayğısının ən böyük təzahürü Universitetin bütün yubileylərini keçirilməsini təşəbbüskarı, Yubiley Komissiyasının sədri olması, yubiley iclaslarında Universitetin inkişaf proqramı olan parlaq çıxışları, Universitetin professor-müəllim heyətini yüksək dövlət mükafatları ilə təltif etməsi olmuşdur.

Bu dövrdə Bakı Dövlət Universitetinə 1970-ci ildə Heydər Əliyev tərəfindən rektor təyin edilmiş akademik F.Bağırzadə rəhbərlik etmişdi. 17 ilə qədər rektor olmuş F.Bağırzadə öz işgüzarlığı ilə fərqlənir, universitetdə aparılan islahatlara bacarıqla başçılıq edirdi.

Heydər Əliyevin bilavasitə rəhbərliyi ilə hazırlanıb həyata keçirilən təhsil islahatlarında ali təhsilin inkişaf istiqamətlərinə, cəmiyyətin inkişafı ilə əlaqədar yeni institutların, fakültələrin, şöbələrin, ixtisasların yaradılması, təhsil sisteminin təkmilləşmsi, təhsil prosesinin keyfiyyət göstəricilərinin əsas amilə çevrilməsinə xüsusi diqqət yetirmişdir.

1970-1980-ci illərdə 7 yeni ali məktəb, 40-dan çox yeni fakültə, 100-dən çox yeni kafedra açılmış, 100-ə qədər yeni ixtisaslar üzrə kadr hazırlığına başlanmışdı.

1980-ci illərin axırında respublikada hər il 100 mindən artıq tələbənin təhsil aldığı 17 ali məktəb fəaliyyət göstərirdi.

Dövlətin təhsil siyasətində ali məktəblərin maliyyələşdirilməsinə diqqətin artırılması, xalq təsərrüfatının, elm və mədəniyyətin müxtəlif sahələri üçün





yeni ixtisasların yaradılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi, tələbə qəbulunun ilbəil artırılması mühüm amil hesab edilirdi. Ölkəmizdə ali təhsilin inkişafına dair qəbul edilən dövlət sənədlərində Heydər Əliyevin təşəbbüsü ilə Bakı Dövlət Universitetinin inkişafı haqqında ayrıca bölmələrin ayrılması universitetə Heydər Əliyev qayğısının təzahürü idi. Universitetin maliyyələşdirilməsinə xüsusi qayğı onun daha da inkişafını təmin edən amillərdən biri kimi qiymətləndirilməlidir.

1970-ci ildə universitetin ikinci tədris binasının istifadəyə verilməsi, yeni tədris avadanlığı ilə təmin edilməsi tədris prosesinin yeni elmi əsaslar üzərində təşkilinə, texniki vasitələrlə təmin edilməsinə səbəb oldu. 1978-ci ildə universitetdə texniki təlim vasitələri üzrə şura yaradıldı. Tədris kinosu, televiziya laboratoriyası, 15 ixtisaslaşdırlmış laboratoriya fəaliyyətə başladı. Universitetin Hesablama Mərkəzi digər ali məktəblər üçün də əsas bazaya çevrildi və müasir hesablayıcı maşınlarla təmin olundu.

Universitetin maddi-texniki bazasının möhkəmlənməsi, tədris vasitələri ilə davamlı olaraq təmin edilməsi tələbə qəbulunu artırmağa şərait yaratmışdı. Aşağıdakı cədvələ diqqət yetirək:

**1970-1979-cu illərdə BDU-nun gündüz şöbəsinə tələbə qəbulu.**

| **İllər** | 1970 | 1971 | 1972 | 1973 | 1974 | 1975 | 1976 | 1977 | 1978 | 1979 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **Tələbə qəbulu** | 1057 | 1030 | 1295 | 1261 | 1354 | 1305 | 1271 | 1275 | 1300 | 1260 |

Universitetə qəbul planının ilbəil artırılması tələbələrin sayının çoxalmasına ciddi təsir göstərərdi. Əgər 1970-1971-ci dərs ilində universitetin gündüz, axşam, qiyabi şöbələrində 11466 tələbə təhsil alırdısa, onların sayı 1975-1976-cı tədris ilində 12965 nəfərə çatmışdı. Universitetdə tələbələrin sayının artması professor-müəllim heyətinin də çoxalmasını, kadr korpusunun möhkəmlənməsini, stabilləşməsini, keyfiyyətcə yüksəlməsini tələb edirdi.

Universitetin tarixində mühüm əhəmiyyət kəsb edən Heydər Əliyev mərhələsinin ən mühüm, böyük əhəmiyyət kəsb edən problemlərindən biri də milli kadrların yetişdirilməsi, bütün təhsil və elmi müəssisələrin yüksək elmi səviyyəli milli kadrlarla təmin edilməsi, ittifaq və beynəlxalq arenaya çıxa biləcək, yeni elmi fikirlər, ideya və nəzəriyyələr irəli sürə biləcək, ölkə elminə, təhsilinə, mədəniyyətinə, iqtisadiyyatına kömək edə biləcək, yeni elmi təkliflər verə biləcək milli kadrların yetişdirilməsi olmuşdur. Heydər Əliyev hakimiyyətə gəldiyi gündən Azərbaycanda qəbul edilən dövlət və partiya qərarlarında milli kadrların hazırlanması əsas vəzifə kimi özünə geniş yer almış, bütün partiya və dövlət işçilərinin qarşısında duran əsas vəzifə hesab edilmişdir. Ulu Öndərin o dövrdəki çıxışlarında, məruzələrində milli kadrların hazırlanması və milli şüurun formalaşması haqqında fikirlər qırmızı xətlə keçir.

Məhz Ulu Öndərin irəli sürdüyü bu nəzəri fikirləri və ideyaları dönüş dövrünün əsas əlaməti kimi milli dirçəlişin tədricən formalaşmasının əsas bünövrəsini təşkil etmişdir.

Bu ideyalar və nəzəri müddəaların Bakı Dövlət Universitetinin kollektivi tərəfindən böyük ruh yüksəkliyi ilə həyata keçrilməsi olduqca möhkəm elmi bazaya malik kadr korpusu, görkəmli alimlər dəstəsi yetirmiş, universitetin professor-müəllim kollektivinin tərkibi keyfiyyətcə dərinləşmiş, ideyaca sağlamlaşmışdı.

**1970-1979-cu illərdə BDU-nun kadr tərkibi**

| Professor-müəllim heyəti | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| 1970-1971 | | | 1975/1976 | | | 1978/1979 | | |
| Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | | Cəmi | O cümlədən | |
| | Elmlər doktoru | Elmlər namizədi | | Elmlər doktoru | Elmlər namizədi | | Elmlər doktoru | Elmlər namizədi |
| 710 | 65 | 376 | 887 | 91 | 468 | 916 | 112 | 490 |

Cədvəldən göründüyü kimi, universitetin tarixinə Heydər Əliyev mərhələsi kimi daxil olan son on ildə Heydər Əliyevin bilavasitə rəhbərliyi və qayğısı sayəsində universitetin kadr korpusunun yaradılması, daha da möhkəmləndirilib təkmilləşməsi sahəsində bir neçə onilliklərə bərabər olan nailiyyətlər əldə edilmişdir.

Kadr potensialının möhkəmlənməsi, keyfiyyət baxımından daha da təkmilləşməsi tədris prosesinin keyfiyyətcə yüksəlməsinə olduqca müsbət təsir göstərmiş, universitet elminin inkişafına, elmi-tədqiqat bölmələrinin möhkəmlənməsinə zəmin yaratmışdı.

1970-1980-ci illərdə universitetdə ilk dəfə olaraq 1973-cü ildə tədrisin keyfiyyətini yüksəltmək üçün dünyanın qabaqcıl ölkələrində tətbiq edilən tədrisin texniki vəsaitlərindən istifadəni tətbiq etmək üçün şura yaradıldı. Bu şuraya 11 nəfər görkəmli professor və müəllim daxil edilmişdi. Şura az bir müddət içərisində ixtisaslaşmış auditoriyaların təşkili, onların texniki vasitələrlə təmini, filmotekaların, ayrı-ayrı fakültələrdə linqafon kabinetlərinin və tədris-televiziya laboratoriyalarının təşkil edilməsində, tədris filmlərinin fondunun yaradılmasında, tədris prosesinin texniki vasitələrlə təmin edilməsində xeyli iş görməyə müvəffəq olmuşdu. 1970-ci ildə artıq 15 ixtisaslaşmış auditoriya fəaliyyət göstərirdi. Universitetdə yaradılmış Hesablama Mərkəzinin tədrisin təşkili prosesinə cəlb edilməsi yeni iş metodlarının tətbiqini xeyli canlandırmışdı.

Universitetdə tədris prosesinin dünya standartları səviyyəsinə yüksəlməsi bilavasitə universitetin maddi-texniki bazasının yüksəlməsindən çox asılı idi. Məhz buna görədir ki, universiteti daimi olaraq öz diqqətində saxlayan Heydər Əliyev 1970-ci illərdə universitetin maddi-texniki bazasının möhkəmləndirilməsinə, onun maliyyələşdirilməsinə, yeni binalarla, tədris avadanlığı





ilə təmin edilməsinə, yeni ixtisaslar və fakültələr, elmi laboratoriyalar açılmasına zəmin yaradırdı.

1970-1980-ci illərdə təxmini statistik rəqəmlərə görə, universitetin maliyyələşdirilməsi 1960-cı illərə nisbətən 2-3 dəfə artmışdır. Maliyyələşmənin davamlı olaraq artması Universitetin inkişaf istiqamətlərinə müvafiq yeni tədris korpuslarının, auditoriyaların, tədris avadanlıqlarının artmasına, keyfiyyətcə daha da təkmilləşməsinə şərait yaratmış, universitetin dünya standartlarına yüksəlməsi üçün zəmin yaratmışdı.

1970-1980-ci illərdə Bakı Dövlət Universitetinin maddi-texniki bazasının möhkəmləndirilməsi onun inkişafı üçün böyük prepektivlər açmış, yeni fakültələrin açılmasını, yeni ixtisaslar yaradılmasını ön plana çəkmişdi.

Son on ildə Universitetdə baş vermiş inkişaf prosesini izləmək üçün 1979-cu ildə Universitetin fakültələri haqqında cədvəli nəzərdən keçirək.

**1979-cu ildə BDU-nun fakültələri haqqında məlumat**

| Fakültələrin adı | Kafedraların sayı | Müəllimlərin sayı | Bunlardan | |
|---|---|---|---|---|
| | | | Elmlər doktoru | Elmlər namizədi |
| Mexanika-riyaziyyat | 7 | 70 | 7 | 45 |
| Tətbiqi riyaziyyat | 2 | 24 | 3 | 14 |
| Fizika | 10 | 90 | 11 | 70 |
| Kimya | 6 | 70 | 5 | 51 |
| Biologiya | 8 | 67 | 11 | 47 |
| Geoloji-Coğrafiya | 9 | 68 | 14 | 45 |
| Hüquq | 7 | 49 | 8 | 27 |
| Tarix | 6 | 60 | 9 | 38 |
| Filologiya | 12 | 130 | 25 | 56 |
| Jurnalistika | 2 | 12 | 2 | 9 |
| Şəqşünaslıq | 3 | 38 | 6 | 16 |
| Kitabxanaçılıq | 2 | 20 | 1 | 10 |

Cədvəldən göründüyü kimi, 1970-ci illərdə Universitetdə 1960-cı illərə nisbətən fakültələrin sayı 10-dan 12-yə, kafedraların sayı təxminən 1,5, müəllimlərin sayı 2 dəfəyə qədər, elmlər doktorlarının və elmlər namizədlərinin sayı 2 dəfədən çox artmışdır. Universitetin inkişafında 1970-ci illər Heydər Əliyev mərhələsinin ilk addımları kimi olduqca böyük əhəmiyyət kəsb etməklə onun inkişafının təməl daşı olmuşdur. 1970-ci illər Universitet elminin inkişafında yeni elmi laboratoryaların, elmi-tədqiqat mərkəzlərinin yaranmasında, yeni elmi istiqamətlərin inkişafında xüsusi mərhələ təşkil edir. Məhz bu mərhələdə elmi kadrların yetişdirilməsi sahəsində mühüm nailiyyətlər əldə


Azərbaycan Milli Kitabxanası

edilmiş, elmi kadrların tərkibi keyfiyyətcə zənginləşmişdir. On il müddətində 24 yeni kafedra açılmış, professor-müəllim heyətinin sayı 953 nəfərə çatmışdı.

**1969-1979-cu illərdə professor-müəllim heyətinin elmi tərkibi**

| Elmi kadrlar | 1969 | 1979 |
|---|---|---|
| AMEA-nın müxbir üzvləri | - | 7 |
| Professorlar | 50 | 116 |
| Dosentlər | 198 | 311 |
| Baş müəllim, assisentlər | 355 | 419 |
| Müəllimlərin sayı | 603 | 853 |
| O cümlədən: | | |
| Elmlər doktoru | 52 | 121 |
| Elmlər namizədi | 327 | 502 |

Yuxarıdakı rəqəmlər Universitetin həyatında baş verən onilliklərə bərabər bir inkişaf Universitetin tarixinə qızıl hərflərlə həkk olunmuşdur.

Ulu Öndər Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci onilliyində ölkə həyatında böyük tərəqqi və inkişaf baş verdi, Azərbaycan iqtisadiyyatı böyük yüksəliş dövrünə qədəm qoydu, respublikada 60-cı illərdə baş vermiş iqtisadi, siyasi böhran, dövlət quruculuğunda baş verən hərc-mərclik sürətlə aradan qaldırıldı, Azərbaycan öz inkişafına görə SSRİ respublikaları içərisində öncül mövqe qazanmağa müvəffəq oldu.

Məhz bu illərdə Azərbaycanda elm, təhsil, mədəniyyət və incəsənət sahəsində də böyük nailiyyətlər əldə edildi. Əldə edilmiş bu nailiyyətlər içərisində Bakı Dövlət Universitetinin uğurları xüsusi qeyd edilməlidir.

Bakı Dövlət Universitetinin 1970-1980-ci illərdə əldə etmiş olduğu bütün nəaliyyətlər Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin Azərbaycan elminə, təhsilinə, mədəniyyət və incəsənətinə böyük qayğısı bu uğurların rəhnidir.

Azərbaycan elminin, təhsilinin, mədəniyyətinin, maarifinin inkişafına böyük töhfələr verən, Azərbaycanın ilk elm və təhsil məbədgahı olan Bakı Dövlət Universiteti öz 60 illiyinə böyük töhfələrlə gəlmişdi. 1980-ci ildə 12 fakültə, 88 kafedra, aspirantura, 4 problem laboratoriyası, 2 muzey, elmi-tədqiqat hesablama mərkəzi, ixtisasartırma fakültəsi, hazırlıq şöbəsi, tələbə şəhərciyi, elmi-tədqiqat bölməsi, nəşriyyat, mətbəə, qəbul olmaq istəyənlər üçün hazırlıq kursu, 2 milyona yaxın kitab fondu olan, respublikamızın elmi ictimaiyyətinə xidmət edən zəngin elmi kitabxanası fəaliyyət göstərirdi. 1970-1980-ci illərdə universitetdə əldə edilən ən böyük uğur kimi onun maddi-texniki bazasının möhkəmləndirilməsini, yeni tədris və elmi laboratoriyalarla, tədris avadanlığı, tədrisin texniki vasitələri ilə təchiz edilməsini qeyd etmək yerinə düşərdi.

1977-1978-ci tədris ilində Universitetinin ikinci tədris korpusu istifadəyə verildi. Artıq Universitet 3 tədris korpusuna malik idi. Bu binalardan ikisi





Patris Lumumba küçəsində, üçüncüsü isə Kommunist (indiki İstiqlaliyyət) küçəsində yerləşirdi. Universitetin bina imkanlarının genişlənməsi onun tədris və elmi fəaliyyətinə olduqca müsbət təsir göstərməklə perspektiv imkanlarının daha da genişlənməsinə şərait yaradırdı.

1979-cu ildən BDU-da tədris kinosu və televiziyası fəaliyyətə başladı, 15 ixtisaslaşdırılmış auditoriya yaradıldı. 1970-ci illərdə Universitetin formalaşmaqda olan Hesablama Mərkəzi digər ali məktəblər üçün proqramlar hazırlamaq üçün əsas bazaya çevrildi. Təhsil Nazirliyi 1977-ci ildə universitetin Hesablama Mərkəzini respublika ali məktəblərinin "Elmi-Tədqiqat Hesablama Mərkəzi"nə çevirdi. Mərkəzin işini daha da təkmilləşdirmək məqsədilə 1980-cı ildə mərkəz müasir hesablayıcı maşınlarla təmin edildi.

Universitetdə həyata keçirilən tədbirlər öz müsbət nəticələrini vermişdi. Son on ildə Universitetdə 16 min yüksək ixtisaslı mütəxəssis hazırlanıb istehsalata göndərilmişdi.

Tələbə qəbulu davamlı olaraq artırdı. 1978-1979-cu tədris ilində universitetdə 13425 tələbə təhsil alırdı. Artıq universitetdə xarici tələbələr də təhsil almağa başlamışdılar. 1979-cu ildə Universitetin 273 xarici tələbəsi var idi. Son on ildə Universitet professor-müəllim kollektivinin sayı təxminən 2 dəfəyə qədər artmışdı. 1979-cu ildə universitet kollektivinin 2384 üzvü var idi ki, bunların 953 nəfəri professor müəllimlər idi. Elmlər doktorlarının və elmlər namizədlərinin sayı müəllimlərin böyük əksəriyyətini təşkil edirdi.

Universitetin aspirantura şöbəsinin işində böyük canlanma baş vermişdi. Universitet respublikanın digər ali məktəbləri və elmi müəssisələri üçün də aspirantlar hazırlayırdı.

1979-1980-ci dərs ilində Universitetdə 177 nəfər aspirant təhsil alırdı ki, bunlardan da 48 nəfəri əyani, 98 nəfəri qiyabiçilər, 31 nəfəri isə xarici ölkələrdən gələn aspirantlar idi.

1970-1979-cu illərdə Universitetin aspirantura şöbəsinin fəaliyyətinin daha dərindən təhlil etmək üçün aşağıdakı cədvələ diqqət yetirək:

**Aspirantura şöbəsinin göstəriciləri**

| İllər | Əyani | Qiyabi | Başqa şəhərlər | Xaricilər | Faizə görə keyfiyyət |
|---|---|---|---|---|---|
| 1970 | 23 | 14 | 9 | - | 78,6 |
| 1971 | 22 | 16 | 5 | 2 | 71,4 |
| 1972 | 23 | 26 | 3 | 1 | 93,3 |
| 1973 | 18 | 24 | 8 | 9 | 117,7 |
| 1974 | 13 | 18 | 7 | 11 | 91,3 |
| 1975 | 16 | 24 | 7 | 1 | 109,5 |
| 1976 | 19 | 28 | 5 | 4 | 100 |
| 1977 | 14 | 25 | 4 | 24 | 88,5 |
| 1978 | 14 | 28 | 3 | 2 | 96,8 |

Cədvəldən göründüyü kimi, 1979-1980-ci illərdə Bakı Dövlət Universitetinin yüksək ixtisaslı alim kadrların hazırlanması sahəsindəki fəaliyyəti universitetlə yanaşı, bütövlükdə Azərbaycan elminə böyük töhfə vermiş gənc kadrların yetişdirilməsindən ibarət idi.

1970-1980-ci illərdə Unversitetin elm və təhsil həyatında ən mühüm rolu olan universitet elmi kitabxanası böyük inkişaf yolu keçmiş respublika ali məktəb kitabxanaları, elmi kitabxanaları içərisində birinci yeri tutmağa layiq olmuşdur. Çox zəngin kitab fonduna, olduqca nadir kitablara malik olan kitabxana təkcə universitetə yox, bütün respublika elminə, respublika elmi ictimaiyyətinə xidmət edirdi.

Respublikada elə bir görkəmli alim, elmi tədqiqatçı tapmaq olmazdı ki, universitet kitabxanasının zəngin və nadir fondundan istifadə etməsin. Respublikada ən zəngin Azərbaycanşünaslıq, Şərqşünaslıq, kitab və qəzet-jurnal fonduna malik kitabxana öz ənənələrini şərəflə davam etdirirdi. Kitabxana respublikanın təhsil və elm məbədgahına çevrilmişdi. Kitabxananın qiraət zalları respublika elm adamlarının görüş və elmi müzakirələr mərkəzi kimi də diqqəti cəlb edirdi. Məhz buna görədir ki, 1974-cü ildə Azərbaycan ali məktəblərinin metodik mərkəzi olan Bakı Dövlət Universitetinin kitabxanasına "Elmi Kitabxana" statusu verildi.

Kitabxananın 1970-1980-ci illərdə elm, təhsil sahəsindəki fəaliyyətini daha dərindən təhlil etmək üçün kitabxananın fəaliyyəti haqqında aşağıdakı cədvəli nəzərdən keçirək:

**Bakı Dövlət Universiteti Elmi Kitabxanasının 1967-1978-ci illərdə kitab fondu və oxucuları haqqında**

| İllər | Kitab fondu | Oxucuların sayı | Kitab verilişi |
|---|---|---|---|
| 1967 | 1.093.723 | 10.142 | 692.738 |
| 1970 | 1.264.633 | 15.730 | 1.24.7529 |
| 1973 | 1.434.459 | 14.044 | 1.99.375 |
| 1976 | 1.579.596 | 16.366 | 1.118.180 |
| 1977 | 1.630.439 | 16.389 | 1.297.786 |
| 1978 | 1.679.970 | 16.971 | 1.327.796 |

Cədvəldən göründüyü kimi, əgər 1970-ci ildə kitabxananın fondunda 1.264.633 nüsxə kitab var idisə, 1978-ci ildə onların miqdarı 1.679.970 nüsxəyə, oxucularının sayı isə 15.730 nəfərdən 16.971 nəfərə çatmışdı. Kitab verilişi isə müvafiq olaraq 1.247.529 nəfərdən 1.327.796 nəfərə çatmışdı.

Kitabxana fondunun zənginliyi, nadirliyi oxuculara xidmətin təşkili oxucuların sorğularının ödənilməsi, ali məktəb elminin inkişafına xidmətin keyfiyyəti baxımından respublika elmi kitabxanaları içərisində 2-ci yerdə möhkəm qərarlaşmışdı.





Məhz buna görədir ki, 1971-ci ildə kitabxanaya Azərbaycan ali məktəb kitabxanalarının metodik mərkəzi, 1974-cü ildə isə elmi kitabxana statusu verilmişdi.

1979-cu ildə Bakı Dövlət Universitetinin 60 illik yubileyi tamam oldu. Ulu Öndərin bilavasitə rəhbərliyi, böyük işgüzarlığı, iradəsi və müdrik rəhbərliyi sayəsində başa çatdırılan bu on il öz məzmunu ilə zəngin olmuşdur. Bu onillik respublikamızda iqtisadiyat, siyasət, dövlət quruculuğu, idarəçiliklə yanaşı olaraq elm, təhsil, mədəniyyət və incəsənət sahəsində də böyük və yaddaqalan, tarixin yaddaşına qızıl sətirlərlə həkk edilən dərin islahatlar illəri oldu.

Məhz bu illərdə Azərbaycann özünün bütün göstəricilərinə görə SSRİ respublikaları içərisində öncül, çiçəklənən respublika kimi məşhurlaşdı. 60-cı illərdə respublikada baş verən iqtisadi, siyasi və ideoloji sahədə baş verən böhran sürətlə aradan qaldırıldı.

Ölkədə durğunluq əvəzinə dönüş və dirçəliş baş verdi. Respublika dövlət planlarının yerinə yetirilməsi ölkənin iqtisadi inkişafını təmin etdi. İqtisadi inkişafla yanaşı, ölkədə elm, təhsil, mədəniyyət, incəsənət, ideoloji və humanitar sahədə də böyük dönüş və dirçəliş baş verdi, milli ideologiyanın yaranması, formalaşması milli özünüdərkin, milli mənlik şüurunun tədrici inkişafı üçün zəmin yarandı.

Ölkədə baş verən bu prosesin gedişində Ulu Öndər Heydər Əliyevin bilavasitə rəhbərliyi, qayğısı sayəsində Bakı Dövlət Universitetinin çoxminli kollektivi də ali məktəb təhsilinin, elminin inkişafına böyük töhfələr vermiş, özünün 60 illik yubileyinə böyük müvəffəqiyyətlə gəlmişdi. Universitetin 70-80-ci illərdə əldə etdiyi böyük nailiyyətlər ali təhsilin, ali məktəb elminin fundamentinə qoyulan elə müvəffəqiyyətlər idi ki, bir neçə onillik ali təhsilin inkişaf istiqamətlərini müəyyənləşdirə, yeni islahatların daha da dərinləşməsinə zəmin yarada bilərdi.

1970-1980-ci illərdə universitetin inkişafına böyük qayğı ilə yanaşan Azərbaycan dövləti ilk növbədə Universitetin hərtərəfli inkişafının, fundamental əsası olan maddi-texniki bazasının möhkəmləndirilməsi, onun yüksək kateqoriya ilə maliyyələşdirilməsi, yeni tədris avadanlığı və texniki vasitələri ilə təmin edilməsi, Universitet kollektivinin: professor-müəllim heyətinin və tələbə kollektivinin maddi vəziyyəti üçün böyük tədbirlər həyata keçirdi.

60-cı illərlə müqayisədə təxmini hesablamalara görə, universitetin maliyyələşdirilməsi 3-4 dəfədən çox artırılmışdı. Universitetin ikinci tədris binası istifadəyə verildi, universiteti fizika-riyaziyyat, tətbiqi-riyaziyyat, fizika, kimya, biologiya, geoloji-coğrafiya, tarix, filologiya, hüquq və kitabxanaçılıq fakültələri yeni tədris binasına köçürüldü.

Beləliklə, universitet 1970-ci illərin sonunda geniş və zəngin auditoriya fondu olan üç tədris binasında yerləşmişdi. Bu binalardan ikisi Patris Lumumba küçəsində, biri isə İstiqlalliyyət (o dövrkü Kommunist) küçəsində fəaliyyət göstərirdi. Şərqşünaslıq və Jurnalistika fakültələrii öz işini İstiqlal (Kommu-

nist) küçəsində davam etdirirdi. Həmçinin universitet tələbələri üçün tələbə şəhərciyinin tikintisinə başlanmış, 1970-ci illərin axırında üç yataxana binası tikilib tələbələrin istifadəsinə verilmişdi.

Universitetin maddi-texniki bazasının möhkəmlənməsi, yeni, müasir keyfiyyətli tədris avadanlığı, tədrisin texniki vasitələri ilə təmin edilməsi onu keçmiş Sovetlər Birliyinin universitetləri içərisində öncül mövqeyə çıxarmış, yüksək təhsil və elmi göstəriciləri, böyük elmi potensial və çoxminli tələbə kontingenti olan bir universitetə çevirmişdi.

1979-cu ildə universitetin tərkibində 12 fakültə (Mexanika-riyaziyyat, Tətbiqi-riyaziyyat, Fizika, Kimya, Biologiya, Geoloji-Coğrafiya, Filologiya, Tarix, Hüquq, Şərqşünaslıq, Kitabxanaçılıq, Jurnalistika), 88 kafedra, 4 problem labarotoriyası, aspirantura, iki muzey, zəngin və nadir kitab fondu olan elmi kitabxana, elmi-tədqiqat hesablama mərkəzi, ixtisasartırma fakültəsi, elmi-tədqiqat bölməsi, nəşriyyat, tipoqrafiya, hazırlıq kursları və tələbə şəhərciyi daxil idi.

1970-ci illərdə universitetə tələbə qəbulu ilbəil artırdı. 1979-cu ildə universitet tələbələrinin sayı 13425 idi. Bunlardan 6325 nəfəri əyani şöbədə, 3092 nəfəri axşam şöbəsində, 4008 nəfəri qiyabi şöbədə təhsil alırdı. Əyani şöbəsinin tələbələrinin 273 nəfəri xarici tələbələr idi. Bu da 60-cı illərdəki tələbələrin sayından 3 minə qədər çox idi.

1970-ci illərdə universiteti 16 mindən artıq yüksək ixtisaslı mütəxəssis bitirib istehsalata işə göndərilmişdi.

1970-ci illərdə tələbə kontingentinin artması, müəllim kadrlara tələbatın çoxalması, elmi-tədqiqat bölməsinin daha da genişlənməsi ilə əlaqədar olaraq Universitetin professor-müəlllimlərinin sayı əhəmiyyətli dərəcədə artmış, keyfiyyət tərkibi yüksəlmişdi. Universitetdə 2384 nəfər işçi çalışırdı ki, bunların da 953 nəfəri professor müəllimlər idi.

1969-1979-cu illərdə baş verən keyfiyyət dəyişikliyini müqayisə üçün aşağıdakı cədvələ diqqət yetirək:

| Elmi kadrlar | 1969 | 1979 |
|---|---|---|
| AMEA-nın müxbir üzvləri | - | 7 |
| Professorlar | 50 | 116 |
| Dosentlər | 198 | 311 |
| Baş müəllimlər, assisentlər | 355 | 419 |
| Müəllimlərin cəmi | 603 | 853 |
| O cümlədən | | |
| Elmlər doktoru | 52 | 121 |
| Elmlər namizədi | 327 | 502 |





Cədvəldən məlum olur ki, professor-müəllim heyətinin keyfiyyət göstəricisi o dövr üçün hər ali məktəbə müyəssər olmayan dərəcədə-təxminən 2-3 dəfə artmışdır.

Professor-müəllim kollektivinin keyfiyyət göstəricilərinin artımı əsas tədris və elmi baza olan kafedraların sayının artmasına, yeni ixtisaslar və ixtisaslaşmaların yaranmasına, yeni elm sahələrinin meydana gəlib formalaşmasına səbəb olmuşdu.

Əgər 1969-cu ildə Universitetdə 64 kafedra var idisə, onların sayı 1979-cu ildə 88-ə yüksəlmişdi. Universitet 18 ixtisas, 64 ixtisaslaşma üzrə kadr hazırlayırdı. Olduqca yeni ixtisaslar: Elektron fizikası, astronomiya, geodeziya, Sovet quruculuğu, beynəlxalq hüquq, neft kimyası, biofizika, türkşünaslıq və sairə ixtisaslar üzrə kadr hazırlayırdı.

Universitetin aspiranturasında 177 nəfər təhsil alırdı. Bunlardan 31 nəfər xarici aspirantlar idi. On il müddətində 70 nəfər doktorluq, 175 nəfər namizədlik disertasiyaları müdafiə etmişdi. Bakı Dövlət Universitetində çox güclü alimlər nəsli yetişmişdi. Bunlar respublikanın elmi həyatında yaxından iştirak edir, öz elmi nailiyyətləri ilə ittifaq miqyasında tanınır, Azərbaycan elminin korifeyləri-akademiklər: M.Rəsulov, Ə.Hüseynov, M.Ç.Qasımov, B.M.Əsgərov, M.Dadaşzadə, H.Araslı, B.Vahabzadə, A.Axundov, V.Məmmədəliyev, A.Aslanov, V.M.Babazadə, F.Qasımzadə, F.Bağırzadə, R.Əliyeva, N.Səfərov, AMEA-nın müxbir üzvləri: M.Ə.Cavadov, V.Ə.Əmənzurov, Q.T.Əhmədov, U.C.Məmmədov, A.Ə.Babayev, A.İ.Muxtarov, S.A.Hacıyev, F.M.Həşimzadə, Q.M.Sultanov, Z.İ.İbrahimov, A.Zamanov, V.P.Qəhrəmanov, M.P.Məlikova, M.Tağıyev görkəmli professorlardan: C.Z.Xəndan, M.C.Paşayev, Ə.Soltanlı, M.Hüseynzadə, F.Zeynalov, Ə.Abdullayev, H.Bədəlov, M.Axundov, M.Xələfov, A.Xələfov və b. kimi onlarla görkəmli şəxsiyyətlər fəaliyyət göstərirdilər.

70-ci illərdə universitetin professor-müəllim kollektivinin elmi potensialının daha da yüksəlməsi, keyfiyyətcə təkmilləşməsi və dərinləşməsi universitetdə xalq təsərrüffatının müxtəlif sahələri üçün yüksək ixtisaslı peşəkar kadrlar hazırlamaqla bərabər ali məktəb elminin daha da inkişafı, böyük elmi, nəzəri və praktiki elmi tədqiqat işlərinin aparılması üçün olduqca əlverişli şərait yaratmışdı. Məhz 70-ci illərdə Bakı Dövlət Universitetində elmi-tədqiqat işi şaxələnmiş, yeni elmi istiqamətlər üzrə ciddi tədqiqatlara başlanmışdı.

1970-ci illərdə universitetdə fəaliyyət göstərən 12 fakültə və 88 kafedrada müasir elmin son nailiyyətlərinə yönəlmiş elmi-tədqiqat planları tərtib edilmişdi. Fakültələrdən 6-sı təbiətşünaslıq və texnika elmləri fakültələri, 6-sı humanitar elmlər fakültələri idi. Həmçinin 6 ümumi universitet ictimai kafedrası fakültələrin tədris prosesində də iştirak edirdi. Universitetdə təşkil edilib formalaşmış 4 elmi-tədqiqat laborotoriyası və elmi-tədqiqat hesablama mərkəzində ciddi elmi-tədqiqat işləri aparılmışdı. Sevindirici hal idi ki, 1978-ci ilə işlənilən 215 mövzunun tədqiqatı başa çatdırılmışdı. Bunlardan 15-i Azərbaycan

SSR-də xalq təsərüfatının inkişafı problemlərinə, 20-si SSRİ Elmlər Akademiyasının koordinasiya planına, 117-si Azərbaycan SSR Elmlər Akademiyasının koordinasiya planına, 56-sı isə təsərrüfat müqavilələrinə həsr edilmişdi.

Universitetdə 1970-ci illərdə yüzlərlə elmi konfranslar, müsabiqələr, elmi müzakirələr keçirilir, geniş və maraqlı, ciddi elmi-tədqiqatları yekunlaşdıran elmi seminarlar təşkil edilirdi. Elmi konfranslar, elmi müzakirələr, elmi seminarlar əksər hallarda ümumrespublika, ali məktəblərarası tədbirlər olduqlarından, respublikamızda elmin inkişafına böyük töhfələr verirdi.

1970-1980-ci illərdə Bakı Dövlət Universitetinin elmi-tədris həyatına böyük sürətlə daxil olan, elmi–metodiki işlərin tədqiqi və ümumiləşdirilməsi, ayrı-ayrı elmi sahələri üzrə metodologiyanın hazırlanması və bu mühüm nəzəri və praktiki əsasda dərsliklərin və dərs vəsaitlərinin hazırlanması prosesi ümumrespublika xarakteri daşıyırdı. Dünya təhsil tarixinin inkişafından məlumdur ki, mühüm elmi-tədqiqatların və ayrı-ayrı fənlərin öyrənilməsi və ümumiləşdirilməsi bazasında ayrı-ayrı fənlər, elm sahələri üçün dərsliklər, dərs vəsaitləri yazmadan, onları çap etdirib tələbələr arasında yaymadan tədris prosesinin keyfiyyətindən danışmaq olduqca çətindir. Məhz buna görədir ki, Ulu Öndər təhsilə, onun inkişaf prespektivlərinə və istiqamətinə dair vaxtaşırı keçirilən dövlət tədbirlərində təhsilin və tədrisin inkişafının məhək daşı kimi ayrı-ayrı fənlər üzrə dərsliklərin yazılmasını və tələbələr arasında yayılmasını təhsil müəssisələrinin qarşısında zəruri vəzifə kimi qoymuşdu. Bu baxımdan 70-80-cı illərdə Bakı Dövlət Universiteti respublika ali məktəbləri üçün olduqca böyük işlər görmüş, universitetin alimləri təbiət, texniki, humanitar və ictimai elmlər üçün çox qiymətli, təhsilimizin keyfiyyət göstəricilərinə xidmət edən dərsliklər və dərs vəsaitləri yaratmağa müvəffəq olmuşlar. Universitet alimlərinin yazdıqları dərsliklərin universitet nəşriyyatında ləngimədən çap olunması bütün respublika ali məktəblərinə çatdırılmasına kömək edirdi. Hər il təxminən 15-20 dərslik, 20-30 dərs vəsaiti və onlarla dərs proqramları 200 çap vərəqi həcmində çap edilib tələbələrin isifadəsinə verilirdi.

1970-1980-ci illərdə bilavasitə Heydər Əliyevin tələbi ilə universitetdə elmi-tədqiqat işi böyük vüsət almışdı. Mövcud kafedralar tədris prosesinin təşkili ilə yanaşı, ciddi tədqiqat mərkəzlərinə çevrilmişdi. Elmi-tədqiqat prosesində 12 fakültə, 88 kafedra ilə yanaşı, olaraq respublika elmi-tədqiqat hesablama mərkəzi, 10-a yaxın elmi-tədqiqat laboratoriyası, elmi muzeylər fəaliyyət göstərirdi.

Universitetdə müxtəlif elm sahələri üzrə 13-dən artıq müdafiə şuralarının yaradılması alim kadrların hazırlanmasına böyük şərait yaratmışdı. Təhsil və tədrisin elmi-metodiki əsaslarının formalaşmasında, tələbələr arasında təlim-tərbiyə işinin istiqamətləndirilməsində, elmi-tədqiqat problemlərinin mövzu istiqamətlərinin müəyyənləşdirilməsində və təsdiqində mühüm elm və metodiki problemlər mərkəzi kimi Universitet böyük tədbirlər həyata keçirirdi. Həmçinin universitet dissertasiya müdafiə şuralarının mərkəzi di. Universitetdə ən mühüm ixtisaslar üzrə doktorluq və namizədlik üzrə ixtisaslaşmış 13 müdafiə şurası fəaliyyət göstərirdi. Universitet alimləri ilə yanaşı, respublikanın görkəmli alimləri də müdafiə şuralarının üzvü kimi şuraların işində iştirak edirdilər. Demək olar ki, 1970-1980-ci illərdə respublikada yetişən doktorların və namizədlərin böyük əksəriyyəti Bakı Dövlət Universitetinin yetişdirmələri olmuşlar.





Ulu Öndər Heydər Əliyevin universitetə göstərdiyi diqqət və qayğı nəticəsində 1970-1980-cı illərdə universitet Sovetlər İttifaqının ən qabaqcıl universitetləri sırasında öncül mövqe qazanmış, beynəlxalq əlaqələri genişlənmişdir.

1970-1980-ci illərdə Heydər Əliyev Azərbaycan ali məktəblərində olmayan nadir ixtisaslar üzrə tələbə hazırlığını Sovetlər Birliyinin ali məktəblərində hazırlanmasının zəruriliyi nəzərə alaraq "Şəhərlərarası qəbul" aparılması proqramını irəli sürdü. İttifaq hökuməti Heydər Əliyevin xahişi ilə SSRİ-nin qabaqcıl ali məktəblərində Azərbaycan üçün yerlər ayırdı.

Bakı Dövlət Universiteti ayrılan yerlərə müvafiq tələbə qəbuluna başladı. Bu proqramın həyata keçirilməsi nəticəsində 70-80-ci illərdə respublikamız xalq təsərrüfatının, elm və mədəniyyətin ən aparıcı sahələri üçün yüzlərlə nadir ixtisaslı kadrlarla təmin edildi.

Respublikamız üçün olduqca zəruri olan bu problemi keçmiş SSRİ məkanında Heydər Əliyev və onun böyük siyasi iradəsi və nüfuzu həll edə bilərdi. Heydər Əliyev təhsil islahatları aparılan, respublika təhsil sisteminin kadr tərkibi ilə tanış olan zaman məlum olmuşdu ki, respublikamızın ucqar rayonlarında bir çox ixtisaslar üzrə mütəxəssis kadrlar çatışmır. Bu qüsuru tezliklə aradan qaldırmaq üçün Heydər Əliyevin göstərişi ilə müsabiqədən kənar qəbulun aparılması həyata keçirilməyə başladı. Respublika qəbul planı hazırlanarkən kadr çatışmayan rayonlar, xüsusilə dağ rayonları üçün müsabiqədən kənar qəbula yerlər ayrıldı (yəni müsabiqədən kənar qəbul üçün göndərilən abituriyentlər ən az balla qəbul olunmaq imkanı əldə edirdilər). Bu, zamanın tələbi idi. Məhz 1979-1980-cı illərdə kadr qıtlığı keçirən dağ rayonları üçün onlarla kadrların hazırlanması dövrün böyük uğuru kimi qəbul edilməlidir.

1970-1980-ci illərdə Bakı Dövlət Universitetinin uğurları içərisində onun beynəlxalq əlaqələrinin genişlənməsi, beynəlxalq imicinin yüksəlməsi, ittifaqın və dünyanın ali məktəbləri içərisində özünəməxsus yer tutması diqqəti cəlb edir. 1970-ci illərdə universitetin beynəlxalq əlaqələrində ciddi yeniliklər baş verdi. 1970-1990-cı illərdə universitetin 40-dan artıq müəllimi pedaqoji fəaliyyət göstərmək üçün müxtəlif xarici ölkələrə göndərilmişdi. Ən çox diqqətəlayiq tədbirlərdən biri də universitetin 300 nəfər müəllim və tələbələrinin Asiya və Afrika ölkələrində tərcüməçi işləməsi olmuş, universitetin beynəlxalq əlaqələrinin formalaşmasına müsbət təsir göstərmişdir. Universitetin professor və müəllimlərinin 50 nəfərinin müxtəlif beynəlxalq konfranslarda, simpoziumlarda iştirakı onun beynəlxalq imicinin yüksəlməsinə müsbət təsir gös-

tərmişdir. Bütün bu uğurların qazanılmasında Heydər Əliyevin iradəsi, qayğı və köməyi dayanırdı.

Bakı Dövlət Universiteti 1970-1980-ci illərdə təkcə respublikamız üçün deyil, SSRİ respublikaları, yaxın və uzaq xarici ölkələr üçün də yüksək ixtisaslı, peşəkar kadrlar hazırlamış, dünyaşöhrətli elmi-tədris mərkəzləri, nüfuzlu ali məktəblər, beynəlxalq təhsil təşkilatları, universitet assosiasiyaları ilə əlaqə saxlamış, beynəlxalq tədris proqramlarında iştirak etmişdir. Yeni təhsil formalarından "Şəhərlərarası təhsil" və "müsabiqədənkənar" təhsil formaları universitetlə onlarla ali məktəblər arasında əlaqə yaranmasına səbəb olmuşdur.

Bakı Dövlət Universiteti olduqca böyük miqdarda şəhərlərarası qəbul aparmaqla keçmiş ittifaqın böyük şəhərləri ilə: Moskva, Leninqrad, Kiyev, Xarkov, Minsk, Daşkənd, Alma-Ata, Novosibirsk, Dnepropetrovsk və s. şəhərlərlə geniş beynəlxalq münasibətlər yaratmağa müvəffəq olmuşdu. Əlaqə yaradılan belə şəhərlərin sayı 30-a yaxın idi. Şəhərlərarası qəbul proqramı həyata keçirilən bütün Universitetlərlə həm təhsil-tədris əlaqələri, həm də elmi-tədqiqat əlaqələri, müəllimlərin qarşılıqlı birgə elmi-tədqiqatlarla məşğul olması imkanları genişlənmişdi. Məhz formalaşmaqda olan bu əlaqələr ilk mərhələdə rüşeym halda olsa da, zaman keçdikcə hərtərəfli, qarşılıqlı inkişafa xidmət edən beynəlxalq əlaqələrə çevrilmişdi.

1970-1980-ci illərdə xarici ölkələrlə aparılan beynəlxalq əlaqələrin miqyası genişlənmiş, Bakı Dövlət Universiteti dünyanın inkişaf etmiş ölkələri elə geniş beynəlxalq əlaqələr quran, onu müvəffəqiyyətlə inkişaf etdirən Şərqlə Qərb arasında əlaqə yaradan bir universitetə çevrilmişdi. Məhz 1970-1980-ci illərdə Bakı Dövlət Universiteti ABŞ, Almaniya, İngiltərə, Fransa, İspaniya, İtaliya, Çexoslovakiya, Misir, Yuqoslaviya, Vyetnam, Koreya və b. ölkələrlə beynəlxalq əlaqələr yaratmağa müvəffəq olmuş, bu əlaqələrdən bəhrələnməyi bacarmışdır. Göstərdiyimiz ölkələrlə aparılan beynəlxalq əlaqələr yüksək ixtisaslı, peşəkar kadrların hazırlanması ilə başlayır, yüksək səviyyəli elmi kadrların hazırlanması, birgə elmi tədqiqatların, elmi layihələrin işlənməsi ilə yekunlaşırdı ki, bu da ali məktəblərarası beynəlxalq əlaqələrin möhkəmlənməsinə, hər iki tərəf üçün uğurlar əldə edilməsinə gətirib çıxarırdı.

Bakı Dövlət Universitetinin həm müttəfiq respublikalar, həm də dünyanın inkişaf etmiş qabaqcıl ölkələri ilə beynəlxalq əlaqələri genişlənmiş, Universitet beynəlxalq əlaqələri geniş miqyas alan dünya universitetləri sırasına daxil olmuş, onun beynəlxalq imici möhkəmlənmişdir.

Bakı Dövlət Universitetinin şanlı tarixinə "Heydər Əliyev mərhələsi" kimi daxil olan 1970-1980-ci illər Universitet tarixinin ən zəngin mərhələsini təşkil edir.

Məhz bu illərdə özünün dünya şöhrətli yetirməsi olan Heydər Əliyevin bilavasitə rəhbərliyi və qayğısı sayəsində Bakı Dövlət Universiteti özünün ən şərəfli bir dövrünü yaşamış, Azərbaycan xalqının ən sevimli elm və təhsil mə-





bədgahına çevrilmişdir. Azərbaycan ali məktəblərinin flaqmanı kimi formalaşan universitet ali təhsilin, ali məktəb elminin formalaşmasının və stabilləşməsinin nəhəng amilinə çevrilmiş, xalqın milli mədəniyyətinin əsas təhsil ocağı kimi milli ideologiyanın formalaşmasının mayası kimi yüksək imic qazanmış və bu imici heç zaman əldən verməmişdir.

Məhz 1970-1980-cı illərdə Bakı Dövlət Universitetində dünya təhsil sisteminin son nailiyyətlərinə, praktikasına söykənərək, milli təhsil ənənələrimizin ən qiymətli xüsusiyyətlərini qoruyub saxlayaraq elə islahatlar həyata keçirilmişdir ki, bu islahatlar bu günü də təhsil sisteminin təkmilləşib inkişaf etməsinə öz mütərəqqi təsirini saxlamaqdadır. Bu islahatların əsasında Heydər Əliyev dühası, onun milli ideologiyaya, Azərbaycan xalqının tarixi təhsil ənənələrinə söykənən elmi-nəzəri, praktiki müddəaları dururdu. Bu islahatların Ulu Öndərin təşəbbüsü ilə formalaşıb, zərgər dəqiqliyi ilə yerinə yetirilməsi ona həmişəyaşarlıq, davamlılıq imkanları aşılayırdı.

Dünya təhsil tarixindən məlumdur ki, təhsilin inkişafının təkmilləşib stabilləşməsinin ən mühüm amili onun maddi-texniki bazasıdır. Möhkəm maddi-texniki baza olmadan, keyfiyyətcə yüksək təhsil ola bilməz. Məhz buna görədir ki, Ulu Öndər 70-80-ci illərdə Azərbaycan təhsilinin inkişafını təmin etmək, onun keyfiyyətini möhkəmləndirmək üçün təhsilin maddi-texniki bazasından möhkəmləndirmək üçün əvvəlki illərlə müqaisədə böyük işlər görülməsini təmin etmişdir. İlk növbədə təhsilin yüksək templə maliyyələşdirilməsi işi ön plana çəkilmiş, təhsilə ayrılan maliyyə vəsaiti ilbəil artırılmış təxmini hesablamalara görə 1970-1980-ci illərdə bu artım 60-cı illərə nisbətən 4-5 dəfə artırılmışdır.

1970-1980-ci illərdə Bakı Dövlət Universitetinin yeni tədris korpusları ilə təmin edilməsində ciddi işlər həyata keçirildi. Bakı Dövlət Universiteti üçün inşa edilən yeni binanın ikinci korpusu istifadəyə verildi. Beləliklə də universitetin bina ilə təmin edilməsi əsaslı surətdə yaxşılaşdırıldı. Universitet üç böyük binada öz fəaliyyətini davam etdirməyə başladı. Bu binalardan biri keçmiş Kommunist küçəsində, ikisi Potiris Lumumba küçəsində yerləşirdi. Yeni binanın istifadəyə verilməsi Universitetin auditoriya fondunun 2 dəfədən çox artmasına səbəb oldu. Yeni korpusların olduqca müasir tədris avadanlığı, tədrisin texniki vasitələri ilə təmin edilməsi universitetin qabaqcıl tədris elmi müəssisə kimi formalaşmasına şərait yaratdı.

70-80-cı illərdə Bakı Dövlət Universitetinin maddi-texniki bazasının möhkəmlənməsi, auditoriya fondunun artırılması tədris prosesinin texniki vasitələrlə təmin edilməsi yeni tədris fondunun yaradılması tədrisin keyfiyyətini yüksəltməklə yanaşı onun tələbə kontingentinin kəmiyyət artımına ciddi təsir göstərdi. Rəqəmlərə diqqət yetirsək, əgər 1965-ci illərdə universitetdə 12430 tələbə təhsil alırdısa onların sayı 1980-ci illərdə 13 minə yaxın idi. İldə universitetdə orta hesabla 1000 nəfərə qədər tələbə qəbul olunurdu. Beləliklə, 1970-80-ci illərdə uni-

versitet xalq təsərrüfatının müxtəlif sahələri üçün minə yaxın tələbə hazırlaya bilmişdi. Bu təhsil tarixində xüsusi diqqətə layiq bir rəqəmdir.

Universitetin beynəlxalq əlaqələrinin genişlənməsi, beynəlxalq nüfuzunun artması, xarici ölkələrdən universitetdə təhsil almaq istəyən tələbələrin miqdarına ciddi təsir göstərmiş, 1970-1980-ci illərdə Bakı Dövlət Universitetini 500-dən artıq xarici tələbələr bitirmişdi.

Universitetdə tədris prosesinin canlanması, tələbə kontingentinin sürətlə artması universitetdə professor-müəllim heyətinin artımına səbəb olmuş, olduqca yüksək elmi potensiala malik milli kadrlar ordusu formalaşmışdı. Məhz universitetdə yetişmiş milli kadrlar təkcə universitetin özündə yox bütövlükdə respublika elminin inkişafına ciddi təsir göstərməklə, ölkənin bütün tədris və elmi müəssisələrə böyük köməklik görstərmişdi.

Rəqəmlərə nəzər salaq. Əgər 1960-cı illərdə universitetdə 953 professor-müəllim fəaliyyət göstərirdisə onların sayı 1980-ci illərdə 1000 nəfər təşkil edirdi.

Universitet SSRİ universitetləri içərisində ən çox xarici ölkələr üçün kadr hazırlayan universitet kimi öncül mövqelərdən birini tuturdu. Universitet dünyanın 20-dən artıq ölkəsi üçün yüksək kadrlar hazırlayırdı. Universitet yüksək ixtisaslı kadr hazırlamaqla yanaşı xarici ölkələri üçün alim kadrların hazırlanmasında da fəaliyyətini genişləndirmişdi.

Beləliklə, 1870-1980-ci illər Bakı Dövlət Universitetinin tarixinə Heydər Əliyev mərhələsi kimi daxil olmuş, elm respublika elminin, təhsilinin, mədəniyyətinin və tərəqqi və inkişafında yüksək inkişaf mərhələsi kimi öz bəhrəsini vermiş, böyük keyfiyyət dəyişikliklərinə səbəb olan bir mərhələ kimi tarixə düşmüşdür.

Məhz bu illərdə Bakı Dövlət Universitetinin maddi-texniki bazası əsaslı surətdə möhkəmlənmiş, yeni tədris korpusları istifadəyə verilmiş, universitetdə müasir tələblərə cavab verən, dərin elmi, praktiki, ənənəvi, milli əsaslarla zəngin olan təhsil islahatları keçirilmiş, tədris prosesi müasir tədris texnologiyası ilə, müasir avadanlıqla təmin edilmiş, kompüter, texnologiyasından istifadə edilməyə başlanmışdır. Tədrisin informasiyalaşdırılması prosesinin elmi əsasları və texnologiyası öyrənilməyə başlanmışdır. Universitetdə davamlı olaraq elmi-tədqiqat laboratoriyalarının yaradılması, onların yeni avadanlıqla, cihazlarla, texnologiya ilə təmin edilməsi elmi-tədqiqat işlərinin keyfiyyətcə yüksəlməsinə şərait yaratmışdır.

Beləliklə, 1970-1980-ci illərdə elm, təhsil və ictimai-siyasi həyatda baş verən titanik dəyişiklər, dərin məzmunlu, milli təmayüllü islahatlar, böyük uğurlar, universitetin dünya şöhrətli məzunu, Azərbaycan xalqının, Azərbaycan dövlətçiliyinin xilaskarı, univesritetin çoxminli kollektivinin sevimlisi və fəxri Ulu Öndər Heydər Əliyevin adı, onun ♀ Azərbaycan elminə, təhsilinə, mədəniyyətinə böyük diqqəti və qayğısı ilə bağlıdır. Məhz bu illərdə universitet Heydər Əliyevin böyük atalıq qayğısı sayəsində əsaslı inkişaf yolu keçmiş, uğurlara nail olmuş, beynəlxalq arenaya çıxmışdır. Heydər Əliyev dühası onun inkişaf və tərəqqi yolunu işıqlandırmışdır.





Ulu Öndər Heydər Əliyevin Azərbaycanın müstəqilliyinin ilk dövründə elmin, təhsilin, mədəniyyətin inkişafına, o cümlədən Bakı Dövlət Universitetinin fəaliyyətinin daha da yaxşılaşdırılması ilə bağlı həyata keçirdiyi geniş miqyaslı tədbirlər ayrıca tədqiqat mövzusudur və bu istiqamətdə araşdırmalar aparılır. Ona görə də bu məqalədə həmin dövrün xarakteristikası üzərində dayanmadan Heydər Əliyev siyasətini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu sahədə yerinə yetirdiyi tədbirlər haqqında ümumi məlumat verməyi məqsədəuyğun hesab etdik.

***

2009-2019-cu illər Azərbaycan tarixində tərəqqi və inkişaf mərhələsi kimi xüsusi yer tutur. Bu mərhələni siyasət, iqtisadiyyat, elm, mədəniyyət və maarifin inkişafı sahəsində böyük nailiyyətlər mərhələsi kimi xarakterizə etmək olar. Bu, Ulu Öndər Heydər Əliyevin bacarıqlı siyasi davamçısı İlham Əliyev mərhələsidir.

Son zamanlar dünya ölkələrinin əksəriyyətində iqtisadi böhran baş vermiş, bir çox ölkələr iqtisadi tənəzzülə uğramışlar. Lakin İlham Əliyevin apardığı siyasi-iqtisadi islahatlar sayəsində qısa zaman kəsiyində Azərbaycan dünyanın qüdrətli dövlətlərindən birinə çevrilmişdir.

İlham Əliyevin ölkəmizə rəhbərlik etdiyi dövrü eyni zamanda Azərbaycan regionlarının inkişaf mərhələsi adlandırmaq olar. Son illərdə elm, təhsil, mədəniyyət sahəsində həyata keçirilən uğurlu islahatlar bu istiqamətlərin inkişafına güclü təkan vermişdir.

Qeyd etdiyimiz kimi, müstəqillik illərində Azərbaycan təhsilinin inkişafı bilavasitə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Təhsilin inkişafına yüksək qiymət verən Heydər Əliyev deyir: “Təhsil sistemi Azərbaycanın gələcəyini təmin edən bir sistemdir. Hər bir millətin, hər bir ölkənin gələcəyi gənclərdir. Biz gənclərimizi nə qədər yüksək təhsilli etsək, onların müəyyən ixtisaslara yiyələnməsinə şərait yarada bilsək, müstəqil Azərbaycanın gələcəyi və demək, müstəqil Azərbaycanın inkişafı, elmin inkişafı, təhsilin inkişafı, insanların rifah halı o qədər də yaxşı olacaqdır”.

Heydər Əliyevin təhsil siyasətini uğurla həyata keçirən müstəqil Azərbaycan dövləti müstəqillik tariximizin İlham Əliyev dövründə olduqca səmərəli islahatlar həyata keçirmiş, mühüm nailiyyətlər əldə etmişdir. Təhsil sisteminin qarşısında duran vəzifələri müəyyənləşdirərkən İlham Əliyev qeyd edir: “Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik! Çünki insanın savadı, biliyi, onun gələcək həyatını müəyyən edir, ölkənin hərtərəfli inkişafına xidmət edir”.

Prezident İlham Əliyevin 2004-2019-cu illərdə təhsilin yeniləşməsi, dünya təhsil siyasətinə inteqrasiyası sahəsində imzaladığı sərəncamların, qanun və qərarların, aparılan islahatların uğurla və ardıcıl yerinə yetirilməsi təhsil sistemində yüksək dəyərlərin əldə edilməsinə səbəb olmuşdur.

Bu nailiyyətlər xüsusilə son dövrlərdə daha intensiv xarakter daşımış, həm ümumi orta təhsil sistemində, həm də ali təhsil sistemində, təhsil sisteminin məzmununda keyfiyyət dəyişikliklərinin baş verməsinə səbəb olmuş, təhsil alanların bilik səviyyəsinin yüksəlməsinə olduqca müsbət təsir göstərmişdir.

Azərbaycanda müstəqillik illərində ali təhsil sistemində baş verən yeniliklər daha mütərəqqi xarakter daşıyırdı. Bu proses bilavasitə ölkəmizin Bolonya təhsil prosesinə keçidi ilə əlaqədar olmuşdur. Doğrudur, Bolonya təhsil prosesinə keçid birmənalı qarşılanmadı. Keçmiş sovet təhsil sistemini qiymətləndirməyə səy göstərən bəzi müəllimlər tapıldı. Ancaq həyat, inkişaf prosesi öz obyektiv həqiqətlərini ortaya qoyurdu. Zaman keçdikcə Bolonya prosesinin Azərbaycan təhsil prosesinə tətbiqi təhsil işçilərinin böyük əksəriyyəti tərəfindən müsbət qiymətləndirilməyə başladı.

Bütün Avropada geniş miqyasda qəbul edilən Bolonya təhsil sistemi Azərbaycan təhsilinə yeni nəfəs verdi. Avropa ölkələrində təhsil prosesində baş verən yeniliklərlə tanış olmaq imkanı yarandı. Təhsilimizin qarşısında yeni perspektivlər açdı. Gənclərimiz Avropa ölkələrində təhsillərini davam etdirmək imkanı qazandılar.

2006-cı ildən ali təhsil sistemində kredit sistemi ilə təhsilin təşkilinə başlanılması Bolonya təhsil sisteminin yeni bir keyfiyyətini ortaya çıxardı. 2010-2015-ci illərdə ali təhsil sistemində müasir maliyyələşdirmə sistemi tətbiq edilməyə başladı ki, bu da Bolonya prosesinin daha da möhkəmlənməsini təmin etdi.

2019-cu ildə hörmətli Prezidentimiz, cənab İlham Əliyevin sərəncamı ilə 100 illik yubileyini qeyd etdiyimiz Bakı Dövlət Universiteti milli elmimizin, təhsilimizin mərkəzi kimi xalq təsərrüfatının, elm, təhsil və mədəniyyətin bütün sahələri üçün 130 mindən artıq yüksək ixtisaslı kadr hazırlamış, elmi inkişafın sükanı arxasında möhkəm dayanmış, beynəlxalq aləmdə böyük nüfuza malik bir universitet kimi tanınmışdır.

Son illərdə BDU dünyanın 700 elitar universiteti siyahısına daxil edilmişdir. Bakı Dövlət Universitetində dərs deyən kadr potensialı tədris prosesinin yüksək keyfiyyətindən xəbər verir.

1919-cu il noyabrın 15-də 44 akademik heyətlə fəaliyyətə başlayan universitetdə hazırda 16 fakültədə, o cümlədən 121 kafedrada 1300-ə yaxın professor-müəllim heyəti çalışır. Onlardan təxminən 200 nəfəri dövlətin ali orden və medalları ilə təltif olunmuş, fəxri adlar almışlar. 17 nəfəri AMEA-nın həqiqi və müxbir üzvi, 8 nəfəri Milli Məclisin deputatı, 2 nəfəri Dövlət mükafatı laureatı, 14 nəfəri fərdi Prezident təqaüdçüsü, 32 nəfəri Əməkdar elm xadimi,





281 nəfəri elmlər doktoru, professor, 1035 nəfəri fəlsəfə doktoru, dosent, 263 nəfəri isə elmi dərəcəsi olmayanlardır.

Universitetdə hazırda müxtəlif elmi istiqamətlərdə bakalavriat səviyyəsində 66 ixtisas üzrə 19036 nəfər, magistratura səviyyəsində 44 elmi istiqamətdə 235 ixtisaslaşma üzrə 1543 nəfər tələbə təhsil alır. Doktorantura səviyyəsində 114 ixtisas üzrə 708 nədər təhsilini davam etdirir. Hər il BDU-nun məzunu adını qazanan 4 minə yaxın tələbə respublikamızın daha da güclənməsi naminə dövlət quruculuğunun müxtəlif sahələrində çalışır.

Hazırda BDU-nun 16 fakültəsində müxtəlif elmi istiqamətlərdə bakalavriaturada 60 ixtisas, magistraturada 197 ixtisaslaşma, doktorantura səviyyəsində isə 70 ixtisas üzrə 22 mindən çox tələbə, magistrant və doktorant təhsil alır.

Tələbələrin hazırlanması, dərs prosesinin təşkili ən yüksək səviyyəli müəllimlərə tapşırılır. Universitetin kadr potensialı olduqca böyükdür, respublikanın ən görkəmli alimləri və mütəxəssislərinin burada çalışması onun imicini olduqca yüksəltmiş, respublika ali məktəblərinin flaqmanına çevirmişdir.

Bakı Dövlət Universitetinin təşkilində, idarə edilməsində, inkişaf və tərəqqisində, onun elm məbədgahına çevrilməsində mühüm xidmətlərə malik fədakar insanlar, görkəmli elm və təhsil xadimləri olan rektorlardan V.İ.Razumovski, S.N.Davidenko, A.D.Qulyayev, V.S.Yelpatyevski, T.A.Şahbazi, A.M.Məmmədov, M.Ə.Ələkbərli, B.S.Həsənbəyov, Ə.M.Əliyev, C.A.Ələsgərov, S.R.Əliyev, A.İ.Qarayev, C.Z.Hacıyev, Y.H.Məmmədəliyev. Ş.F.Mehdiyev, M.S.Əliyev, F.M.Bağırzadə, Y.C.Məmmədov, V.B.Quliyev, V.Ç.Qasımov, F.Y.Səməndərov, M.N.Ələsgərov, M.C.Mərdanov, A.M.Məhərrəmov Bakı Dövlət Universitetinin tarixi inkişaf yolunda böyük işlər görmüş, elmin və təhsilin inkişafında öz fədakar yaradıcı xeyirxah əməyi ilə universitet tarixini bəzəmişlər.

Beləliklə, "xalqımızın milli sərvəti" (H.Əliyev) olan Bakı Dövlət Universitetinin keçdiyi 100 illik tarixi bir yol Azərbaycan təhsilinin, elminin, mədəniyyətinin keçdiyi uğurlarla dolu şərəfli bir yoldur.

Bakı Dövlət Universiteti hər zaman xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və İlham Əliyevin siyasi kursuna, azərbaycançılıq ideyalarına sadiq olmuşdur.

Müasir şəraitdə Bakı Dövlət Universitetinin bugünkü fəaliyyəti Ulu Öndər Heydər Əliyevin, Azərbaycan Respublikasının Prezidenti, xalqımızın sevimlisi, cənab İlham Əliyevin daxili və xarici siyasətinə böyük dəstəkdir.

Bakı Dövlət Universitetinin yeni tədris korpusunun açılışında çıxış edən prezidentimiz demişdir: "Bakı Dövlət Universiteti Azərbaycanın aparıcı təhsil ocağıdır. Burada çox güclü professor-müəllim heyəti çalışır və bütün dövrlərdə universitet Azərbaycanda peşəkar kadrların hazılanması işində çox böyük işlər görmüşdür. Bu gün isə universitet inkişafının yeni mərhələsini yaşayır".

Yeni inkişaf mərhələsi elm və təhsilin informasiyalaşdırmasını, elmiləşdirilməsini, modernləşdirilməsini, innovativ yeniliklər, informasiya texnologiyalarının elmi tədqiqatlara və tədrisin təşkilinə tətbiqi mərhələsi kimi böyük problemləri həll etmək, təhsilin təşkilində və elmdə dünyanın qabaqcıl universiteti sırasına yüksəltməyi tələb edir. Universitetin kollektivi hazırda bu mühüm problemləri həll etmək üçün ciddi işlər görməkdədir.

Beləliklə, Bakı Dövlət Universiteti bütün çətinliklərə sinə gərmiş, tədricən inkişaf edərək formalaşmış və qürur hissi ilə demək olar ki, bu gün Azərbaycan xalqının böyük bir elm və təhsil məbədgahına çevrilmişdir.

## ƏDƏBİYYAT

* *Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. B., 1997-2013, C. 1-46.*
**İlham Əliyev. İnkişaf məqsədimizdir. B., 2008-2019, C. 1-89.*

1. *Azərbaycan tarixi: yeddi cilddə. C.7. 1941-2002-ci illər. B., 2008, 605 səh.*
2. *Xələfov A.A. Azərbaycanda kitabxana işinin tarixi. Dərslik. II hissə. B., 2007, 351 səh.*
3. *Kitabxanaşünaslıq və informasiya: elmi nəzəri və praktiki jurnal. № 1 (28). B., 2019, 213 səh.*
4. *Bakı Dövlət Universitetinin dünya şöhrətli məzunu.,B., 2001.*
5. *Atakişiyev A. Bakı Dövlət Universiteti. B., 1991, s.135*
6. *Əliyev İ. Bakı Dövlət Universitetinin yeni korpusunun açılış mərasimində nitq. "Respublika" qəzeti, 16 sentyabr, 2008*
7. *Azərbaycan tarixi: Dərslik.- B., 2001.- S. 22.*
8. *Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin yeni 2001-ci il, yeni əsr və üçüncü minillik münasibəti ilə Azərbaycan xalqına müraciəti.- B., 2001.- S. 26-27.*
9. *Azərbaycan SSR Elmlər Akademiyasının Xəbərləri (tarix, fəlsəfə, hüquq seriyası).- B., 1990.- № 2.- S. 21.*
10. *Народное образование в Азербайджане. 1920-1927 гг.- Б., 1928.- С. 14.*
11. *Məhərrəmov A. Bakı Dövlət Universiteti.- B., 2000.*
12. *Азербайджанская Демократическая Республика (1918-1920). Законодателные акты. - Б., 1998.*
13. *Atakişiyev A. Bakı Dövlət Universitetinin tarixi. B., 1991.*
14. *Маковелский А.О. Азербайджанский Государственный Университет имени В.И.Ленина. В., 1930.*
15. *Бакинский рабочий, 1921, 3 август.*
16. *Xələfov A.A. Sovet Azərbaycanında kitabxana işinin tarixindən (1920-1932-ci illər). B., 1960.*





17. *Алимирзоев Х.О. Азербайджанский Государственный Университет за 50 лет. Б., 1969.*
18. *Azərbaycan SSR Arxiv İdarəsi. F. 57, siyahı 1, s.v. 420, səh. 34.*
19. *Алимирзоев Х.О. Азербайджанский Государственный Университет.Б., 1969.*
20. *Bakı Dövlət Universitetinin elmi əsərləri: Kitabxanaşünaslıq və biblioqrafiya ser. 1972, №1, s.60.*
21. *Bakı Dövlət Universiteti Elmi Kitabxanasının 1960 və 1965-ci illər hesabatı.*
22. *Bakı Dövlət Universiteti Elmi Kitabxanasının 1970-1979-cu illər hesabatları.*
23. *Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. B., 2006.241s .*
24. *Багирзаде Ф.М., Казыев М.А. Азербайджанский Государственый Университет 60 лет. Б., 1969, с.24.*
25. *Abbasbəyli Ağalar. Azərbaycan mənim ürəyimdir. B.2002, s.90.*
26. *Azərbaycan tarixi 7 cilddə, 7-ci cilid. B., 2003,s.327.*
27. *Xələfov A.A. Məqalələr toplusu 80.-Bakı, 2011, 464 s.*
28. *Bakı Dövlət Universiteti 1919-1994. Bakı, ADU nəşriyyatı, 1994,120 s*
29. *Məhərrəmov A. Bakı Dövlət Universiteti -95. B., 2014, "Bakı Universiteti Nəşriyyatı", 575 s.*
30. *Mərdanov M., Əhmədov Ə. Heydər Əliyev və Bakı Dövlət Universiteti., B., 1997, 136 s.*
31. *Bakı Dövlət Universiteinin dünya şöhrətli məzunu. B.,2001, 229 s.*
32. *Xələfov A.A., Qurbanov A.İ. Kitabxanaların kompüterləşdirilməsinin əsasları. B., Bakı Universitetinin nəşriyyatı, 201,328 s.*
33. *Azərbaycan Respublikasının tarixi (1991-2003), B., 2016, C.1, 702 s.*
34. *Azərbaycan Respublikasının tarixi (2003-2016), B., 2016, C.2, 715 s.*
35. *Abuzər Xələfov, Solmaz Sadıqova. Heydər Əliyev Biblioqrafik Məlumat Kitabı. B., 2003, 60 s.*

## БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ-100
### Новый этап развития и эвалюции Бакинского Государственного Университета: этап Гейдар Алиева (1969-2003)

**ХАЛАФОВ А. А.**
***Заслуженный деятель наука Азербайджанской Республики, Заслуженный работник культуры, Почётный профессор Бакинского Государственного Университета, Академик Международной Академии Информатизации при ООН, Индивидуальный стипендиат Президента Республики, Доктор Исторический наук, профессор***

***РЕЗЮМЕ***
*Статья посвящена, выпускнику Бакинского Государственного Университета мирового значения, великому предводителю Азербайджанского народа,*

*Гейдару Алиеву. Было освещено развитие и эволюция Бакинского Государственного Университета.*

***Ключевые слова:*** *выпускник Бакинского Государственного Университета мирового значения, направление развития Университета в этапе Гейдара Алиева, полученные достижения и успехи.*

## BAKU STATE UNIVERSITY-100
## A new stage in the development and evolution of Baku State University: The stage of Heydar Aliyev (1969-2003)

**KHALAFOV A.A.**
***Honored Scientist of the Republic of Azerbaijan, Honored Worker of Culture, Honorary Professor of Baku State University, Academician of the International Academy of Informatization at the UN, Individual pensioner of the President of Azerbaijan Republic, Doctor of Historical Sciences, Professor***

*SUMMARY*
*The article covers the activities of the Great Leader Heydar Aliyev as a world-renowned graduate of BakuState University as a considerate person, admirer and protector of Baku State University for 34 years.*
***Keywords:*** *Heydar Aliyev, BakuState University, a world-renowned graduate of Baku State University.*